**“Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il fevralın 24-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 may 2025-ci il
№ 202-VIIQ

**Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və bitki mühafizəsi sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra birlikdə “Tərəflər”, ayrılıqda “Tərəf” adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Pakistan İslam Respublikası Hökuməti,

ticarət əlaqələrinin inkişafı və kommersiya müqavilələrinin həyata keçirilməsi zamanı Tərəflərin Dövlətlərinin ərazilərinə karantin tətbiq edilən zərərli orqanizmlərin məskunlaşması və yayılmasının qarşısının alınması sahəsində əməkdaşlığın əhəmiyyətini qəbul edərək,

bitki karantini və mühafizəsi sahəsində əməkdaşlığı davam etdirmək, genişləndirmək və dövlət fitosanitar tədbirlərinin əlaqələndirilməsini təmin etmək istəyini arzu edərək,

aşağıdakı kimi razılaşdılar:

Maddə 1
**Səlahiyyətli orqanlar**

1. Bu Sazişin müddəalarının həyata keçirilməsi və fəaliyyətlərinin əlaqələndirilməsi üçün Tərəflərin səlahiyyətli orqanları aşağıdakılardır:

(i) Azərbaycan Respublikası Hökuməti tərəfindən - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi;

(ii) Pakistan İslam Respublikası Hökuməti tərəfindən - Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqat Nazirliyi.

2. Səlahiyyətli orqanlarda dəyişiklik olduğu təqdirdə Tərəflər bir-birini diplomatik kanallar vasitəsilə yazılı şəkildə məlumatlandırırlar.

Maddə 2
**Anlayışlar**

Bu Sazişdə istifadə olunan terminlər aşağıdakı mənaları ifadə edir:

a) “bitkilər” - toxumlar və genetik material da daxil olmaqla canlı bitkilər və onların hissələri;

b) “bitkiçilik məhsulları”-dən də daxil olmaqla emal olunmamış bitki mənşəli materiallar, habelə öz təbiətinə və ya emal üsuluna görə zərərli orqanizmlərin məskunlaşması və yayılması riskini yarada bilən emal olunmuş bitki mənşəli məhsullar;

c) “zərərli orqanizm”- bitki və ya bitkiçilik məhsullarına zərər vuran heyvanların, bitkilərin və ya xəstəlik törədən mikroorqanizmlərin hər hansı növü, növün dəyişmiş forması, yaxud bioloji tipi;

d) “karantin tətbiq edilən zərərli orqanizm” - ərazidə hələlik mövcud olmayan və yaxud mövcud olaraq məhdud dairədə yayılmış və rəsmi mübarizə obyektinə çevrilmiş təhlükə altında olan ərazi üçün potensial iqtisadi əhəmiyyət kəsb edən zərərli orqanizm;

e) “karantin nəzarətində olan materiallar” - fitosanitar tədbirləri tələb edən hər hansı bitki və bitkiçilik məhsulu, onların saxlanma yeri, qablaşdırma materialı, daşıma, qab, torpaq və zərərli orqanizmləri gizləməyə və ya yaymağa şərait yaradan hər hansı digər orqanizm, obyekt və ya material, xüsusən də beynəlxalq yükdaşımaların aparıldığı hallarda; və

f) “fitosanitar sertifikatı” - “Bitki Mühafizəsi haqqında” Beynəlxalq Konvensiyaya uyğun olaraq hazırlanmış və təsdiq olunmuş bitki və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti barədə rəsmi kağız sənəd və ya onun rəsmi elektron ekvivalenti.

Maddə 3
**Sazişin tətbiq dairəsi**

Bu Sazişin müddəaları elmi tədqiqat məqsədləri və ya diplomatik, konsulluq və digər nümayəndəliklər üçün nəzərdə tutulmuş yüklər də daxil olmaqla, zərərli orqanizmlərin məskunlaşmasına və yayılmasına şərait yaradan bütün karantin nəzarətində olan materiallar, torpaq, torpaqla birgə nəql olunan bitkilər və bütün orqanizmlər, obyektlər və ya materiallara tətbiq edilir.

Maddə 4
**Fitosanitar sertifikatlar**

1. Bir Tərəfin Dövlət ərazisindən digər Tərəfin Dövlət ərazisinə idxal edilən karantin nəzarətində olan materialların hər partiyasına ixrac edən Tərəfin müvafiq səlahiyyətli orqanı tərəfindən fitosanitar və ya təkrar-ixrac fitosanitar sertifikatları verilir.
2. Fitosanitar və ya təkrar-ixrac fitosanitar sertifikatların nümunələri və onlarda edilən dəyişikliklərə dair məlumatlar Tərəflərin müvafiq səlahiyyətli orqanları tərəfindən mübadilə edilir.
3. Fitosanitar və ya təkrar ixrac fitosanitar sertifikatı və ya daxil edilən məlumatlarla bağlı şübhəli hallar yarandıqda, Tərəflərin müvafiq səlahiyyətli orqanı digər Tərəfin rəsmi sorğusu əsasında əlavə və ya dəqiqləşdirilmiş məlumat təqdim etməlidir.
4. Tərəflərin səlahiyyətli orqanları özlərinin Dövlətlərinin milli qanunlarına uyğun olaraq karantin nəzarətində olan materialların hər bir partiyasının fitosanitar vəziyyətinə dair əlavə şərtlər irəli sürmək (zərərsizləşdirmək, yenidən qablaşdırmaq, kənar qarışıqlardan və torpaqdan azad etmək, yuyulma, germetiklik və s.) hüququna malikdirlər.

Maddə 5
**Əməkdaşlıq sahələri**

Tərəflər öz Dövlətlərinin qanunlarına və beynəlxalq hüquq normalarına müvafiq olaraq aşağıdakı sahələrdə əməkdaşlıq edirlər:
(i) Bir Tərəfin Dövlət ərazisindən digər Tərəfin Dövlət ərazisinə karantin nəzarətində olan materialların idxalı, ixracı, təkrar ixracı və tranziti zamanı karantin tətbiq edilən zərərli orqanizmlərin yayılmasının qarşısının alınması üçün tədbirlərin görülməsi;
(ii) Tərəflərin Dövlətlərinin ərazilərində bitki karantini və mühafizəsi tədbirlərini tənzimləyən qanunvericilik aktlarının mübadiləsinin həyata keçirilməsi;
(iii) Tərəflərin Dövlətlərinin ərazilərində karantin tətbiq edilən zərərli orqanizmlərin qeydə alınması və yayılması barədə məlumat mübadiləsinin aparılması;
(iv) bitki karantini və mühafizəsi sahəsində elmi əsaslı tədqiqat mövzuları barədə məlumat mübadiləsinin aparılması;
(v) bitki karantini və mühafizəsi sahəsində elmi innovasiyalar və müvafiq təcrübənin təmin edilməsi məqsədilə mütəxəssislərin qarşılıqlı ezam edilməsi;
(vi) bitki karantini və mühafizəsi üzrə tədbirlərin həyata keçirilməsi, karantin tətbiq edilən zərərli orqanizmlərin qeydə alınması, lokallaşdınlması və məhv edilməsi üzrə qarşılıqlı elmi, texniki və digər yardımların təmin edilməsi;
(vii) karantin nəzarətində olan materialların siyahılarının mübadiləsi və fitosanitar və ya təkrar ixrac fitosanitar sertifikatının tələb edilməsi; və
(viii) Tərəflərin Dövlətlərinin milli qanunlarına əsasən, fitosanitar nəzarətinə aid olan malların idxalı və ixracı ilə bağlı qadağalar və məhdudiyyətlər barədə əvvəlcədən məlumat mübadiləsinin aparılması.

Maddə 6
**Karantin nəzarətində olan materialların daşınması**

1. Tərəflərin Dövlətlərinin ərazilərinə karantin nəzarətində olan materialların ixracı, idxalı və tranziti Tərəflərin milli qanunları ilə müəyyən edilmiş Dövlət sərhədindən buraxılış məntəqələrində həyata keçirilir.
2. Tərəflərin Dövlətlərinin ərazisindən karantin nəzarətində olan materialların ixracı zamanı qablaşdırma materialı kimi plastik; parça, kağız, ağac kəpəyi, ağac yonqarı və digər xüsusi hazırlanmış ağac qablaşdırmalarından istifadə edildikdə, onlar zərərli orqanizmlərdən və torpaqdan azad olunmalıdır.
3. Qablaşdırma materialı kimi zərərli orqanizmlərin daşıyıcısı ola bilən quru ot, küləş, pufə, yarpaq və oxşar bitki mənşəli materiallardan Tərəflərin əvvəlcədən yazılı razılığı olmadan istifadə edilə bilməz.
4. Tərəflərin Dövlətlərinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə karantin nəzarətində olan materialların daşınmasında istifadə olunan nəqliyyat vasitələri təmizlənməli, zəruri hallarda zərərsizləşdirilməlidir.
5. Karantin nəzarətində olan materialların tranzit ərazisindən tranzit üçün istifadə

edilən Tərəfin Dövlətinin milli qanunlarına uyğun olaraq həyata keçirilir.

Maddə 7
**Xərclər**

Karantin nəzarətində olan materialların yoxlanılması və sənədləşdirilməsi xərcləri idxal edən Tərəfin Dövlətinin qanunlarına uyğun olaraq yük sahibi tərəfindən ödənilir.

Maddə 8
**Nəzarət tədbirləri**

1. Fitosanitar nəzarəti zamanı karantin nəzarətində olan material partiyalarında karantin tətbiq edilən zərərli orqanizmlər aşkar edildiyi təqdirdə, idxalçı Dövlətin səlahiyyətli orqanları yoluxmanı aradan qaldırmaq üçün tədbirlər həyata keçirmək, yoluxmuş malları zərərsizləşdirmək və ya ixrac edən Dövlətə geri qaytarmaq hüququna malikdirlər. Eyni zamanda, görülmüş fitosanitar tədbirlər və səbəbləri barədə digər Tərəfin səlahiyyətli orqanlarına məlumat verilməlidir.

2. Karantin nəzarətində olan materiallar fitosanitar və ya təkrar ixrac fitosanitar sertifikatlarla müşayiət olunmadıqda və yüklərin geri qaytarılması mümkün olmadığı sübuta yetirildikdə, onlar səlahiyyətli orqanların qərarı əsasında Tərəflərin Dövlətlərinin milli qanunvericiliyinə, milli və beynəlxalq fitosanitar standartlara uyğun olaraq zərərsizləşdirilə, emal edilə və ya məhv edilə bilər. İstənilən halda, Tərəflərin səlahiyyətli orqanları Fitosanitar Tədbirlər üzrə Beynəlxalq Standartların tələblərinə uyğun olaraq mövcud uyğunsuzluqlar barədə yazılı xəbərdarlıq etməlidirlər.

Maddə 9
**İşçi görüşlər**

1. Tərəflərin səlahiyyətli orqanları bu Sazişin müddəalarının həyata keçirilməsi və praktiki məsələlərin həlli üçün zərurət yarandıqda, Tərəflərdən hər hansı birinin dövlətinin ərazisində və ya virtual olaraq işçi görüşlər təşkil edə bilərlər.

2. Görüş yeri, tarixi və iclasların müzakirə mövzularının siyahısı Tərəflərin müvafiq orqanları tərəfindən müəyyən edilir.

3. Görüşlərin təşkilati xərcləri ev sahibi Tərəfin müvafiq qurumları tərəfindən ödənilir. Nəqliyyat və gündəlik xərclər Tərəflər tərəfindən ödənilir.

Maddə 10
**Mübahisələrin həlli**

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı yarana biləcək hər hansı mübahisələr Tərəflər arasında qarşılıqlı danışıqlar yolu ilə dostcasına həll edilir.

Maddə 11
**Digər beynəlxalq öhdəliklərə münasibət**

Bu Saziş Tərəflərin tərəf olduğu digər beynəlxalq sazişlərdən irəli gələn hüquqlarına və öhdəliklərinə təsir etmir.

Maddə 12
**Düzəlişlər**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişin ayrılmaz tərkib hissəsi olan və bu Sazişin 13-cü maddəsinə uyğun olaraq qüvvəyə minən ayrıca Protokol formasında rəsmiləşdirilən hər hansı əlavələr və düzəlişlər edilə bilər.

Maddə 13
**Yekun müddəalar**

1. Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişi diplomatik kanallar vasitəsilə aldığı tarixdən qüvvəyə minir.

2. Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır. Tərəflərin hər biri istənilən vaxt digər Tərəfə bu Sazişin ləğv edilməsi niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı şəkildə məlumat verə bilər. Ləğvetmə bu bildirişin alınmasından 6 (altı) ay sonra qüvvəyə minir.

3. Bu Sazişin ləğv edilməsi Tərəflər başqa cür razılaşmayıbsa, bu Sazişə əsasən başlanmış layihələrin və ya proqramların icrasına onlar tamamlanana qədər təsir göstərmir.

Bakı şəhərində 24 fevral 2025-ci il tarixində, Tərəflərin səlahiyyətli nümayəndələri

tərəfindən Azərbaycan və ingilis dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Sazişin müddəalarının təfsiri zamanı fərqlilik yarandığı təqdirdə, ingilis dilindəki mətn üstünlük təşkil edir.

| | |
|---|---|
| **Azərbaycan Respublikası Hökuməti adından** | **Pakistan İslam Respublikası Hökuməti adından** |
| *(imza)* | *(imza)* |